

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 120 (23.532)

25 iyul 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Suyun nə dərəcədə əhəmiyyətli olduğunu artıq bütün dünya bilir, görür və biz də bu sahədə vaxt itirməməliyik. Biz vaxtı qabaqlamalıyıq, gördüyümüz işləri elə qurmalıyıq ki, ölkəmiz üçün, əhali üçün lazım olan bütün infrastrukturu yaradaq".*** Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsi kimi yaşayış məntəqələrinin



içməli su təminatı mühüm yer tutur. Çünki keyfiyyətli içməli su ilə təchizat həm də sağlam həyat deməkdir. Bu tədbirlər Şərur rayonunda da uğurla davam etdirilir.

İyulun 24-də Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Əvvəlcə Arpaçay subölücüsündə yeni tikilmiş qalereyaya baxış olmuşdur. Məlumat verilmişdir ki, "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinə əsasən tikilmiş qalereya Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə eni 1,3, hündürlüyü 2, uzunluğu isə 134 metrdir. Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Qalereyadan su anbarına qədər diametri 900 millimetr olan plastik borularla 1500 metr xətt çəkilmiş, üzərində 2 suboşaldıcı tikilmişdir. Su anbarlarından Şərur şəhərinə qədər isə 9,5 kilometr uzunluğunda plastik boru xətti çəkilmişdir. Arpaçay subölücüsünün ətrafında metal tordan 3200 metr uzunluğunda hasar çəkilmiş, 14 videonəzarət kamerası quraşdırılmışdır.

Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksi barədə məlumat verən Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev demişdir ki, layihə üzrə tikinti işlərinə 2012-ci ildə başlanılmış, bu günədək Şərur şəhəri və ətraf 4 kənddə – Mahmudkənd, Yengicə, Zeyvə və Düdəngədə içməli su şəbəkəsi, Şərur şəhərində həm də kanalizasiya şəbəkəsi tikilmişdir. Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin tikintisinə 2019-cu ilin fevral ayında başlanılmışdır. 2 hektar ərazidə yerləşən kompleksdə sahəsi 700 kvadratmetr olan sutəmizləyici qurğu, gözətçi binaları, hər birinin tutumu 400 kubmetr olan 2 xam, ümumi tutumu 27 min 500 kubmetr olan 3 təmiz su anbarı yerləşir. Sutəmizləyici qurğu binasında idarəetmə, elektrik təchizatı otaqları, anbar və yeməkxana vardır.

Arpaçay subölücüsündə tikilmiş qalereyadan kompleksə daxil olan su Almaniya istehsalı olan ozon qurğusu vasitəsilə dezinfeksiya olunaraq xam su anbarlarına ötürülür. Xam su anbarlarına ötürülmüş suyun təmizlənməsi İsveçrə və Türkiyə istehsalı olan 3 mərhələli filtr qurğuları vasitəsilə həyata keçirilir. Mexaniki filtrlərə daxil olan su 100, sonrakı mərhələdə torba filtrlərdə 10, katric filtrlərdə isə 1 mikrona qədər təmizlənir.



Filtr qurğularında təmizlənmiş suya natrium hipoxlorid vurulduqdan sonra təmiz su anbarına yığılır və öz axını ilə şəbəkəyə verilir.

Sutəmizləyici qurğu gün ərzində 20 min 400 kubmetr və ya saniyədə 236 litr sutəmizləmə gücünə malikdir. Binada İtaliya istehsalı olan avadanlıqlarla təchiz olunmuş 5 xətt quraşdırılmışdır. Gələcəkdə tələbatın artması nəzərə alınaraq sutəmizləyici qurğuda əlavə 2 xəttin yaradılması üçün ehtiyat yer ayrılmışdır. Baş verə biləcək fövqəladə hal zamanı ozonlaşmış suyun xam su anbarına daxil olmadan ehtiyat xətlə təmiz su anbarlarına ötürülməsi nəzərdə tutulmuşdur. İş prosesi tam avtomatlaşdırılmışdır. Su anbarlarının səviyyəsinə, suyun sərfinə, təzyiqinə, elektrik keçiriciliyinə və bulanıqlığına idarəetmə otağında quraşdırılmış kompüterlə nəzarət olunur.

Ali Məclisin Sədri sutəmizləyici qurğunu işə salmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur Şəhər



Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi münasibətilə istifadəçiləri təbrik edərək demişdir: Bu gün dünyanın qarşısında duran problemlərdən biri də təmiz su təminatıdır. Hər bir ölkə içməli və təsərrüfat suyuna olan tələbatının ödənilməsində su ehtiyatlarından qənaətlə istifadə etməlidir. Ölkəmizdə bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Vaxtilə Bakı şəhərinə Şollar suyunun çəkilməsi, keçmiş Sovetlər Birliyi dövründə isə ümummilli liderimiz Heydər Əliyev tərəfindən bu məsələnin diqqətdə saxlanılması, həyata keçirilən tədbirlər bu gün ölkəmizin və onun Naxçıvan Muxtar Respublikasının su təminatında ciddi dönüş yaratmışdır. Ötən əsrin 70-ci illərində Şərur rayonunda Arpaçay Su Anbarı, eləcə də ölkəmizdə yeni su anbarları və kanalları tikilmiş, subartezian quyuları qazılıb istifadəyə verilmişdir. Müstəqillik illərində də ulu öndərin rəhbərliyi ilə bu işlər davam etdirilmişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə ümummilli liderimiz Heydər Əiyevin yolu uğurla davam etdirilir. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarına uyğun olaraq şəhər, rayon və kəndlərdə içməli və təsərrüfat suları ilə təminat sahəsində mühüm işlər görülür. Muxtar respublikamızda da bu məsələ diqqətdə saxlanılmış, dövlət proqramında nəzərdə tutulmuş vəsait hesabına Şərur şəhəri və ətraf kəndlərdə 2012-ci ildən etibarən yeni içməli su sistemlərinin qurulmasına başlanılmışdır. Şərur şəhərində, eləcə də Mahmudkənd, Zeyvə, Düdəngə, Cəlilkənd və Yengicə kəndlərində 240 kilometrə yaxın içməli su, 50 kilometrə yaxın kanalizasiya xətləri çəkilmiş, ümumilikdə, 30 minə yaxın əhali təmiz və tam standartlara cavab verən su ilə təmin olunmuşdur. Layihə çərçivəsində yeni sutəmizləyici qurğu da inşa olunmuşdur. Burada su ozonla təmizləndikdən sonra mexaniki, torba və katric filtrlərindən keçirilərək anbarlara yığılır və oradan öz axını ilə şəbəkəyə ötürülür.

"Bu ərazilərdə əhalinin içməli su təminatında daim çətinliklər olmuşdur. Ona görə də kollektiv tikililərdən səmərəli istifadə etməli, onları qorumalı, sutəmizləyici qurğu saz vəziyyətdə saxlanılmalıdır. Bilməlisiniz ki, 30 minə yaxın insanın su təminatı sizin gündəlik əməyinizin nəticəsində mümkün olacaqdır", – deyən Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, ərazidə yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

*Ardı 2-ci səhifədə*

# Cəlilkənddə içməli su şəbəkəsi qurulub



“Şərur şəhərinin və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində rayonun Cəlilkəndində də yeni içməli su şəbəkəsi qurulmuşdur.

İyulun 24-də kənddə içməli su şəbəkəsinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, Cəlilkənddə içməli su şəbəkəsinin tikintisinə 2019-cu ilin noyabr ayında başlanılmışdır. Su Şərur şəhərinə gələn ana xətdən götürülərək paylayıcı şəbəkəyə verilir. Layihəyə uyğun olaraq ərazidə diametri 25 millimetrdən 280 millimetrə qədər olan plastik borularla 18,3 kilometr içməli su xətti çəkilmiş, ev birləşmələri aparılmış, 342 evə su verilərək sayğac quraşdırılmış, 2222 sakin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunmuşdur. Su şəbəkəsi üzərində 5 yanğın hidrantı, qəza zamanı məhəllə xətlərinin bağlanması üçün müxtəlif diametrli 26 siyirtmə və 2 suboşaldıcı quraşdırılmışdır.

Yerin relyefindən asılı olaraq mənzillərə su 2-5 bar arası təzyiqlə verilir. Layihə çərçivəsində Şərur şəhəri və ətraf 5 kənd – Mahmudkənd, Yengicə, Zeyvə, Düdəngə və Cəlilkənd üzrə, ümumilikdə, 4906 ev və 170 müəssisə su şəbəkəsinə qoşulmuş, sakinlər Beynəlxalq Səhiyyə Təşkilatının tələblərinə cavab verən təmiz içməli su ilə təmin olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Hər bir yaşayış məntəqəsinin su təminatının yaxşılaşdırılması vacib məsələdir. Su haradadırsa, həyat, sağlamlıq və təmizlik də oradadır. Ölkəmizdə qəbul olunmuş Dövlət proqramlarının tərkib hissəsi kimi muxtar respublikamızda da əhalinin içməli və təsərrüfat suyu ilə təminatı diqqətdə saxlanılır. Ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq həyata keçirilən bu işlər böyük əhəmiyyət daşıyır. Çünki dayanıqlı su təminatı əhalinin sosial problemlərinin həll olunması sahəsində görülən vacib işlərdəndir. “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinə uyğun olaraq həyata keçirilmiş tədbirlər Cəlilkənddə də içməli su problemini həll etmişdir. Kənddə müxtəlif diametrli borularla ümumi uzunluğu 18 kilometrdən artıq olan su xətti çəkilmiş, 340-dan çox abonentlə müqavilə bağlanmışdır.

Ali Məclisin Sədri demişdir: Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksində 4 mərhələdə təmizlənən və yüksək standartlara cavab verən içməli su Şərur şəhərində və ətraf kəndlərində uzun illər əhalinin tələbatını ödəyəcəkdir. Cəlilkəndin 2200-dən artıq əhalisi tam standartlara cavab verən sudan istifadə edəcəkdir. Eyni zamanda gələcəkdə rayonun digər kəndlərində də bu layihə həyata keçiriləcəkdir. Ona görə də sudan qənaətlə istifadə olunmalıdır. Çünki hər bir evə suyun çatdırılması üçün böyük zəhmət çəkilib, ən müasir sistem qurulub. Sutəmizləyici Qurğular Kompleksindən su elektrik enerjisi istifadə olunmadan Şərur şəhərinə və ətraf 5 kəndə verilir.



Ali Məclisin Sədri demişdir: Cəlilkənd ziyalılar kəndidir. Şərur rayonunda ilk məktəb və kitabxana burada yaradılıb. Rayon ərazisindəki yeganə buxana abidəsi də Cəlilkənddədir. Kəndin qədim tarixi və zəhmətkeş insanları vardır. Ona görə kəndin inkişafı mərhələ-mərhələ həyata keçirilib, insanların rahat yaşayışı üçün şərait yaradılıb. İçməli su təminatı da sakinlərin uzun illər çəkdiyi əziyyətə son qoyub.

Ali Məclisin Sədri sakinlərə təbriklərini çatdırmış, içməli su şəbəkəsinin qurulmasında əməyi olanlara təşəkkür etmişdir.

Kənd ağsaqqalı Namiq Hüseynov demişdir: “Dünyanı bürüyən pandemiya dövründə respublikamızda quruculuq işləri öz axarında davam edir və hər tərəf günü-gündən gözəlləşir. Bir neçə il bundan əvvəl Cəlilkənddə gözəl, yaraşıqlı məktəb binası, həkim ambulatoriyası, mədəniyyət evi, muzey, kənd və xidmət mərkəzi tikilərək sakinlərin istifadəsinə verilmişdir. XIX əsrə aid buxxana abidəsi yenidən qurulmuşdur. Təbii qaz və elektrik xətləri yenilənmiş, geniş asfalt yol salınmışdır. Yaradılan şəraitdən istifadə edərək kəndimizin zəhmətkeşləri torpaqlarını əkir, təsərrüfatlarını genişləndirir, muxtar respublikada məhsul bolluğuna öz töhfələrini verirlər. Bizim ancaq bir problemimiz var idi. Bu da içməli suyun olmaması idi. Sizin böyük təşəbbüsünüz, diqqət və qayğınız sayəsində tez bir zamanda bu problem aradan qaldırıldı. Kəndə içməli su xətti çəkildi. İndi çox sevinirik ki, kəndimiz 24 saat davamlı, Dünya Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə təmin olunmuşdur. Göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə kənd əhalisi adından minnətdarlıq edirik”.

Ali Məclisin Sədri içməli su şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə salmış, Şərur rayonunun Sərxanlı kəndində içməli su şəbəkəsinin qurulması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# “Nağdsız ödəyin, hədiyyə qazanın!” tədbirinin qalibləri mükafatlandırılıb

*Naxçıvan Muxtar Respublikasında ənənə halını almış “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin onüçüncü tirajının qalibləri müəyyənləşib. 2020-ci il yanvarın 1-dən iyul ayının 1-dək daha çox nağdsız ödənişlər edən muxtar respublika sakinləri bu tirajın nəticələrinə görə qiymətli hədiyyələrlə mükafatlandırılıblar.*

Bununla əlaqədar Naxçıvan Biznes Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə “2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram” təsdiq edilib, nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi üçün bir sıra tapşırıqlar verilib. Qeyd edilib ki, verilən tapşırıqlara uyğun olaraq nağdsız ödəniş infrastrukturunun genişləndirilməsi, maarifləndirmə və əhalidə nağdsız ödənişə marağın artırılması üçün həvəsləndirici tədbirlər keçirilir. Görülmüş işlərin nəticəsi olaraq nağdsız ödənişlərin əsas vasitələrindən olan POS-terminal aparatlarının sayı muxtar respublika üzrə 1 iyul 2020-ci il tarixə 1310 ədədə çatdırılıb.



Vurğulanıb ki, nağdsız dövriyyənin artırılması məqsədilə aparılan maarifləndirici və stimullaşdırıcı tədbirlər öz müsbət nəticələrini verib. Belə ki, təkcə 2019-cu ildə 810 şəxsə 50 min manat dəyərində müxtəlif qiymətli hədiyyələr təqdim olunub. Ümumilikdə, 2014-cü ildən başlayaraq keçirilən 12 tirajda 2989 vətəndaşa 190 min manat dəyərində müxtəlif həvəsləndirici hədiyyələr verilib. “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin 13-cü tirajında isə 426 şəxsə 25 min manat dəyərində hədiyyələr təqdim ediləcək.

Tədbirdə çıxış edən Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Emin Quliyev qeyd edib ki, müasir dövrün aktual iqtisadi istiqamətlərindən biri məhz nağdsız ödəniş sisteminin inkişaf etdirilməsidir. Bu sahəyə marağın gündən-günə artması statistik rəqəmlərdə də müşahidə olunur. Belə ki, 2019-cu ilin yanvar-dekabr aylarında POS-terminal və digər ödəniş vasitələrilə aparılan nağdsız əməliyyatların həcmi 45 milyon 550 min 608 manat təşkil edib. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 10 milyon 457 min 258 manat artım qeydə alınıb. Nağdsız ödənişlərin 14 milyon 717 min 545 manatı POS-terminallar vasitəsilə, 30 milyon 833 min 63 manatı isə internet və digər ödəniş vasitələri üzərindən icra edilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Vergi nəzarəti tədbirlərinin təhlili şöbəsinin rəisi Rəşad Əliyev çıxışında nəzərə çatdırıb ki, hədiyyələr 6 aylıq müvafiq məlumatlar və bir sıra amillərə uyğun olaraq meyarlar üzrə qruplaşdırılıb. Belə ki, 1-ci meyar üzrə 400 manatdan 601 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim olunan hədiyyələrin dəyəri 30-50 manat arasında müəyyən olunub. Bu meyarda muxtar respublika üzrə 177 şəxs, o cümlədən Naxçıvan şəhəri üzrə 31 şəxs hədiyyə qazanıb. 2-ci meyar üzrə 601 manatdan 801 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim olunan hədiyyələrin dəyəri 50-70 manat arasında müəyyən olunub ki, bu meyarda da muxtar respublika üzrə 122 şəxs, o cümlədən Naxçıvan şəhəri üzrə 27 şəxs hədiyyə qazanıb. 3-cü meyar üzrə 801 manatdan çox nağdsız əməliyyat aparan şəxslərə təqdim olunan hədiyyələrin dəyəri 70-90 manat arasında müəyyən olunub ki, bu meyarda da muxtar respublika üzrə 113 şəxs, o cümlədən Naxçıvan şəhəri üzrə 20 şəxs hədiyyə qazanıb.

Sonra nağdsız ödənişlər sahəsində fəallıq göstərən şəxslərə hədiyyələr təqdim olunub.

**Əli CABBAROV**

# Yeni ailə təsərrüfatı fəaliyyətə başlayıb

*Muxtar respublikamızda ailə təsərrüfatlarının inkişafı istiqamətində davamlı şəkildə sistemli tədbirlər həyata keçirilir, istehsalın genişləndirilməsi, əhali məşğulluğunun artırılması, ailə biznesinin qurulması diqqət mərkəzində saxlanılır. Ötən dövrdə bu istiqamətdə qarşıya qoyulan vəzifələrin icrasına uyğun olaraq Ailə Təsərrüfatları İctimai Birliyi yaradılıb, diyarımızda bu mütərəqqi təsərrüfat forması ilə məşğul olan şəxslərə ətraflı informasiyalar verilib, maddi dəstək göstərilib.*





Dövlət dəstəyi nəticəsində ailə təsərrüfatları məhsullarının qablaşdırma və dizaynlarının tərtib edilməsi, onların taralarla təchizatı məhsulun bazara və istehlakçılara marketinq qaydalarına uyğun olaraq çatdırılmasına imkan verib.

2020-ci il muxtar respublikada “İxrac ili” elan edilib, bu məqsədlə Ali Məclis Sədrinin 2020-ci il 6 mart tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixracı dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı” təsdiq olunub. Tədbirlər planında nəzərdə tutulan işlərin icrası ilə əlaqədar davamlı olaraq ailə təsərrüfatları ilə aparılan müəyyən təşviq işlərində istehlak bazarının tələbləri öyrənilir, ixracyönümlü məhsulların dəstəklənməsi istiqamətində tədbirlər həyata keçirilir.

Müşahidələr göstərir ki, müxtəlif bitki toxumlarından alınan yağlara bazarda tələbat böyükdür. Bu istiqamətdə Naxçıvan şəhərində bitki toxumlarından hazırlanan yağların istehsalını həyata keçirən yeni ailə təsərrüfatı fəaliyyətə başlayıb. Ailə təsərrüfatının üzvü Nəsib Cəfərli bildirdi ki, ilkin olaraq burada bir sıra xəstəliklərin müalicəsində effektiv nəticələr verən çörəkotu və küncüd yağları istehsal ediləcək. Gələcəkdə bazarın tələbinə uyğun olaraq məhsul çeşidinin artırılması, zeytun, çaytikanı və digər şəfaverici bitki yağlarının istehsalı nəzərdə tutulur.

Qeyd edək ki, yeni bitki toxumlarından yağların istehsalı sahəsində quraşdırılan avadanlıqlar Almaniya istehsalıdır, xammal isə İran İslam və Türkiyə respublikalarından gətirilir. Gələcəkdə xammalın da muxtar respublikamızda istehsalı nəzərdə tutulur.

**Nail ƏSGƏROV**

# Hakim yüksəkliklərdə məskən salan oğullar




*Bu gün Əlahiddə Ümumqoşun Ordunun dəniz səviyyəsindən 3000 metr yüksəklikdə yerləşən bölmələrində xidmət edən hərbi qulluqçularımızın Vətən sevgisi hər birimizi daha da qürurlandırır. Çətin dağlıq şəraitdə xidmət edən dağ vüqarlı ərənlərin təəssüratlarını öyrənmək məqsədilə yol aldıq qartallar məkanı olan uca zirvələrə doğru. Yolboyu qartalların uçuşunun, kəkliklərin ətrafda qaçışının şahidi olduq, dağ qoyunu və dağ keçisi sürülərini gördük. Həmin istiqamətdə gecələr ova çıxdıqlarına görə gözümüzə dəyməyən, lakin mövcud olan oxlu kirpi, Qafqaz bəbiri, çöl pişiyi, vaşaq, canavar və sair kimi nadir tapılan növlər də var. Bu da Vətənimizin hər qarışı kimi flora və faunasının da qorunduğunu göstərir.*



Çətin və sıldırımlı yollarla səriştəli sürücü, kiçik çavuş Hüseyn Hüseynquluyevin idarə etdiyi nəqliyyat vasitəsi bizi buludların ağuşuna aldığı hakim yüksəkliklərə doğru apararkən zabit Anar Nəbiyev çətin dağlıq şərait olmağına baxmayaraq, gedəcəyimiz ünvanda tikilən müasir əsgəri-məişət kompleksindən, ordumuzun müdafiə potensialının artırılması istiqamətində aparılmış işlərdən həmin bölməyə düşən paydan fəxrlə danışır.

Sıldırım qayalıqları arasında aparılmış mühəndis işləri nəticəsində əvvəllər uzun vaxt sərf edilən yolu qısa zamanda qət edərək mənzilbaşına çatırıq. Burada – əsgərlərimizin məskən saldığı qartallar məkanı olan uca zirvələrdə üçrəngli, ay-ulduzlu bayrağımız qürurla dalğalanır. Uğrunda canlar verilib, qanlar tökülən və hazırda Vətən müdafiəçilərimizin başı üzərində dalğalanan bayrağımız hər birimiz üçün namus, şərəf simvoludur.

Bu gün Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən bölmələrində, dayaq məntəqələri və mövqelərində düşmənin





hiyləgər təxribatlarının qarşısını almağa hesablanmış tədbirlər görülərək müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb.

Ön xətdə şəxsi heyətin rahat yaşaması və nümunəvi xidmət aparması məqsədilə relyef və iqlim şəraitinə uyğun inşa olunan müasir binalarda hərtərəfli şərait mövcuddur. Müasir kazarmalarda yaşayıb, keyfiyyətli geyim və ərzaqla təmin olunan əsgərlərimiz dövlət qayğısından və xalq-ordu birliyindən güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanırlar. Hakim yüksəkliklərdə şəxsi heyətin nümunəvi xidməti üçün dövlətimiz tərəfindən yaradılan şərait düşmənlərimizə gözdağıdır. Burada əsgərlərin asudə vaxtlarının səmərəli təşkili üçün də hər cür şərait yaradılıb.

Mürəkkəb dağlıq şəraitdə yerləşən bölmələrdə şəxsi heyət döyüş hesabatına uyğun, planlı şəkildə məşq edirlər. Məşqlər zamanı əsas diqqət hərbi qulluqçuların sayıqlığını yoxlamaqla bərabər, komandirlərin bölmələri və döyüşü idarəetmə vərdişlərinin təkmilləşdirilməsinə yönəldilir. Zabitlərdən Ozal Məmmədov, Nəzarət Şəfiyev, Azər Muxdarov və başqaları ilə də həmsöhbət olan zaman bildirdilər ki, bölmədə əsgərlərin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığının yüksəldilməsi istiqamətində xüsusi əhəmiyyətə malik tədbirlər həyata keçirilir.

Məşğələlərdə şəxsi heyətə, ilk növbədə, yüksək dözümlülük, iqlim xüsusiyyətlərini bilmək və ona uyğunlaşmaq, təhlükəsizlik qaydalarına əməl etmək kimi mühüm amillər də öyrədilir.

Plana uyğun olaraq ön xətdə xidmət edən zenitçilərimiz bilavasitə tutduqları atəş mövqelərindən 23 millimetrlik zenit qurğuları ilə praktik atışlar keçirirlər. Atışlar zamanı pilotsuz və digər uçuş vasitələri ilə hədəfi aşkar müşayiət və məhvetmə vərdişləri təkmilləşdirilən zenitçilərimiz şərti düşmənin alçaq və ən alçaq hündürlüklərdə uçan, qəfil peyda olan, eləcə də yerüstü hədəflərini məhv edirlər. Atışların nəticəsi bir daha göstərdi ki, ön xətdə yerləşən hava hücumundan müdafiə bölmələrimiz hər an düşmənin qəfil hava hücumunu dəf etməyə hazırdır. Hədəfləri sərrast atəşlə məhv etməyi bacaran əsgərlərdən Vəfalı Cəmilzadə, Qurban Qurbanov və başqaları hava məkanımızı müdafiə etmək kimi şərəfli xidmətləri ilə fəxr etdiklərini bildirdilər.

Döyüş hazırlığının əsas tərkib hissəsi olan fiziki hazırlıq üzrə keçirilən idman saatlarında şəxsi heyət böyük həvəslə iştirak edir. Əsgərlərdən Ayxan Aslanzadə mülki həyatda idman sahəsində uğurlu nəticələrinin olduğunu qeyd edərək onunla bərabər, əsgər yoldaşlarından Rauf İsmayılov, Sahib İbrahimov, Zahir Həsənov, Ülvi Məzahirli, Vasif Məmmədov və digərlərinin də hərbi qulluqçular arasında keçirilən idman yarışlarında nailiyyətlər qazandığını bildirdi.

Şəxsi heyətin təəssüratlarını öyrənən zaman müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursunu uğurla bitirib ön xətdə xidmətini davam etdirən İlkin Zeynalov xidmətin və döyüş növbətçiliyinin uğurla təşkilindən danışdı.

Nümunəvi xidməti ilə seçilən əsgərlərimizdən Xəzri, Eltac, Orxan, Miryaqub, Səfər, Bəfadar, Rasif, Abbas, Ziya, Cəlal və Məhəmməd kimi gənclərimiz ön xətdə xidmət etdikləri ilə qürur duyduqlarını bildirdilər. Əsgərlərimiz onu da vurğuladılar ki, biz burada təkcə əsgər yoldaşı deyil, bir ailə kimiyik. Çünki bizim bir şüarımız var: "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün!"

Hərbi qulluqçularımızın səsləndirdiyi fikirlər onu deməyə əsas verir ki, əsgərlərimiz hər zaman döyüşə hazır, peşəkar döyüşçülər kimi yetişir, Hərbi Andın və nizamnamələrin tələblərini layiqincə yerinə yetirərək şərəfli xidmət yolu keçirlər.

Göründüyü kimi, təmas xətti boyu mövqelərini gücləndirən Əlahiddə Ümumqoşun Ordunun ucqar və çətin dağlıq şəraitdə yerləşən hissə və bölmələrində möhkəm müdafiə potensialı yaradılıb. Yazımızın qəhrəmanlarının xidmət etdiyi bu bölmədə muxtar respublikamızın əsas müdafiə istehkamına və alınmaz qalasına çevrilib.

**Nəriman NƏCƏFOV**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Xalçalarımızda tariximiz, keçmişimiz yaşayır

***İşıqların iki saatdan bir yanan vaxtları idi. Soyuq, həm də vahiməli qış gecələri canımıza qorxu, vəlvələ salmışdı. Pəncərəni donduran buz parçaları da iki gün idi ki, şəklini dəyişdirməmişdi. Çovğun arabir qapının ağzında ipə atılan balaca xalçanı var gücü ilə yellədirdi. Evimizin ağbirçəyi, 86 yaşlı nənəm pəncərənin qarşısında dayanmışdı. Ev soyumasın deyə, qapını da açır bilmirdi. Diqqətli baxışlarla köhnə xalçasını gözündən qoymurdu. Ailə üzvlərinin söhbətlərinə məhəl qoymadan nəzərləri xalçada qalmışdı. Ürəyindən keçən fikirləri, qorxuları gözləri danışırdı: sanki külək o köhnə xalçanı aparacaq, o da bizi daha qapıda qarşılamayacaqdı...***

Nənəmin təlaşını görüb bu köhnə, nimdaş xalçanı niyə bu qədər əzizləməsini soruşdum: – Ay nənə, bu köhnəlmiş xalça sənin üçün niyə bu qədər əhəmiyyətlidir? Çöldə asılan təzə xalça heç yadına düşmür. Köhnə xalçadır, qoy elə külək aparsın, – demişdim ki, nənəm qaşlarını çataraq: – Allah əzizindən alsın, ay bala... O necə sözdür? Sənin xəbərin var o xalçanın tarixindən? Bilmirsən mənim üçün necə qiymətlidir. Mən deyim, sən də qulaqlarını aç eşit, bildiklərindən sonra görəcəksən ki, sənin düşündüyün köhnə xalça çox dəyərə malikdir. Görəcəksən ki, köhnə dediyin o xalça milli dəyərlərimizin bu günü, keçmiş xatirələrimizin izidir. Nənəmin söhbəti bizdə də o köhnəlmiş xalçaya maraq oyatmışdı.

Evimizin ağbirçəyi deyirdi ki, hələ mən balaca olanda bundan da çətin illər idi. Müharibənin yaratdığı çətinliklər evdən-eşikdən didərgin salmışdı camaatı. Atam müharibəyə getmişdi. Anam isə xalça toxuyub sataraq bizə çörəkpulu əldə edərdi. Göz nuru, əl zəhməti bahasına başa gələn xalçaları gah yaxşı, gah da ki dəyər-dəymazinə satıb gələrdi. Gün gəldi, ay keçdi, anam bərk xəstələndi, bu sənətin sirlərini evin böyük qızı olduğum üçün mənə öyrətməyə başladı. Mən də anamın köməyi ilə qaranlıq gecələrdə şam işığı ilə xalça toxumağa başladım. Anamla yeganə toxuduğum xalça, bax o dediyin köhnə nimdaş xalça oldu ki, onda mənim də, anamın da əl izləri var... O xalçada bizim çətinliklərimiz, həyat hekayələrimiz var...



Nənəmin söhbətindən sonra o xalçanı götürüb mən də əzizləyib evdə yadigar kimi saxladım. O gündən sonra xalçalar haqqında düşüncələrim də dəyişdi. Öyrəndim ki, milli-mənəvi dəyərlərimizdə yer alan, əl əməyi, göz nuru olan xalçalar bizə nənələrimizdən qalan ən dəyərli xəzinədir, mirasdır. Arxeoloji materiallar, orta əsr qaynaqları və bir sıra digər qaynaqlar Naxçıvanda xalçaçılıq sənətinin yüksək səviyyədə inkişaf etməsini göstərir. AMEA Naxçıvan Bölməsinin, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, tarix üzrə elmlər doktoru Fəxrəddin Səfərli "Naxçıvanda xalçaçılığın inkişaf tarixindən" adlı elmi məqaləsində qeyd edir: " Bu sənət növü Azərbaycanda eramızdan bir neçə əsr əvvəl meydana gəlmiş, erkən orta əsrlər zamanı müstəqil sənət növünə çevrilmişdir. Bu dövrdə Azərbaycanın bir sıra şəhərlərində, o cümlədən Naxçıvan şəhərində xalçaçılıq nəinki inkişaf etmiş, hətta böyük şöhrət qazanmışdır".

Məqalədə oxuyuruq: "X-XII əsrlərdə Naxçıvanda xalçaçılıq o dərəcədə yüksək inkişaf səviyyəsinə çatmışdı ki, Azərbaycan şəhərlərində toxunan müxtəlif növ xalçaların ornament və təsvirlərinin tərtibatında naxçıvanlı sənətkarların əl işlərindən istifadə olunmuşdur. Görkəmli xalça ustası və tədqiqatçısı Lətif Kərimov bu haqda qeyd edir ki, orta əsr Azərbaycan şəhərlərində istehsal olunan xalçaların bədii tərtibatında Əcəmi Əbubəkr oğlu Naxçıvani, Əhməd Əyyub oğlu Naxçıvani kimi görkəmli Azərbaycan sənətkarlarının yaxından iştirak etdiyini ehtimal etmək olar".

Bu mirası qoruyan və xalçalarımızı təbliğ edən Naxçıvan Dövlət Xalça Muzeyi bu gün böyük bir missiyanı yerinə yetirir. Burada sərgilənən eksponatlarda ulu nənələrimizin nəfəsi toxunan ilmələr və müxtəlif əl izləri, ən əsası da milli dəyərlərimiz yaşayır. O xalçalarda onların həyat hekayələrinə, ağrılı-acılı günlərinə şahidlik edən miraslar, ənənələr var. Xalçaların qorunduğu məkanda olmaq, burada çalışanlarla söhbət etmək, ilmə-ilmə toxunuşları hiss edib bu ənənəni yaşadanlar haqqında nənəmin dediklərindən daha çox şeylər öyrənmək istəyirdim. Muzeyin bələdçisi Sevinc Səbzəliyevanın söhbətini muzeydə təşkil olunmuş onlayn ekskursiya zamanı dinlədim. Ətraflı məlumat verən bələdçi bildirdi ki, milli dəyərlərimizin yaşadığı muzey 1998-ci ildə yaradılıb. 2010-cu ildən isə yeni binada fəaliyyətini davam etdirir. 2013-cü ildə muzeydə yenidənqurma işləri aparılıb, ekspozisiyası yenidən təşkil olunub. Dünəndən bu günə, bu gündən isə sabaha yaşadılan milli dəyərlərimizin daşıyıcısı olan muzeyin fondunda 4000-ə yaxın eksponat toplanıb. Onların 400-dən çoxu ekspozisiyada nümayiş olunur. Burada Naxçıvan qrupuna aid bir-birindən gözəl xovlu və xovsuz xalça nümunələri, xalçaçılıq məmulatları, məişət əşyaları yer alıb. Palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalar, süjetli portret və miniatür xalçalar, o cümlədən müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, xurcun, duz torbası və digər eksponatlar bizə ulu keçmişimizdən soraq verir. Burada ibtidai dövrləri gözlərimiz önünə gətirən eksponatlar da var. Keçə-xalçalar bu kateqoriyadan hesab edilir. Həmçinin qamış yarpağından toxunan və el arasında "həsir" adı ilə tanınan çətən toxuculuq nümunəsi də xüsusi diqqətə layiqdir. Sonralar isə xovsuz xalçalar meydana gəlir ki, bunlar da – palaz, cecim, kilim, zili, şəddə olub. İnkişafın sonrakı mərhələsini də xovlu xalça nümunələri təşkil edib.

Bu xalçalara gözəllik verən isə onun üzərində təsvir edilən bir-birindən gözəl və fərqli naxışlardır. Bu naxışları sənətşünaslarımız həndəsi, zoomorf, nəbati və antropomorf naxışlar olmaqla, 4 qrupa ayırıblar. Naxışlarda insan, heyvan təsvirləri var.

Ornamentli, süjetli xalça qrupları da özünəməxsusluğu ilə seçilən nümunələr sırasındadır. Çeşni rəngarəngliyi, bəzək məziyyətləri, texnoloji xüsusiyyətləri, nəbati motivli ornamentləri, klassik naxışları ilə fərqlənən xalçalarımız uzun inkişaf yolu keçərək bu günümüzə gəlib çıxıb. 2010-cu ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 5-ci sessiyasında Azərbaycan xalçası bu mötəbər qurumun mədəni irs siyahısına daxil edilib. Artıq bədnam ermənilər ata- babalarımızın evlərindən oğurladıqları xalçaları özlərininki kimi təqdim edə bilmirlər. Çünki Azərbaycan xalçalarının kimə məxsusluğunu təsdiqləyən pasportu – kataloq və lazımi sənədləri beynəlxalq şəkildə təsdiq edilib. Bu addımdan sonra səsi soraq-soraq, el-el gəzən milli dəyərlərimiz hesab edilən xalçalarımız əsrarəngizliyi ilə dünyada daha böyük şöhrət qazandı. Təkcə bir faktı xatırladaq ki, 2010-cu ilin noyabr ayının 15-də Böyük Britaniyanın London şəhərində təşkil olunan "Azərbaycan: uçan xalçalarla nağıllar aləmində" adlı sərgidə Böyük Britaniyanın mədəniyyət naziri Ed Veyzi sərgilənən xalçalara baxaraq öz təəssüratlarını heyrətli bir ifadə ilə dilə gətirmişdi: ***"Azərbaycan xalçaları əsrarəngizdir".***

Sorağı xarici ölkələrdən gələn xalçalarımız bu gün muzeydə etibarlı şəkildə qorunub saxlanılır, buraya üz tutanlara nümayiş etdirilir. Xalçalarımız milli-mənəvi irsimiz, dünənimiz, bu günümüz və sabahımızdır.

**Türkan HÜSEYNLİ**

*Azərbaycan milli mətbuatı — 145*

***Azərbaycan milli mətbuatının 145 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 22 iyul tarixli sərəncamları ilə Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə bir qrup şəxsin təltif edilməsi və onların arasında Naxçıvan Muxtar Respublikası media təmsilçilərinin də olması dövlətimizin mətbuat sahəsinə göstərdiyi qayğının bariz nümunəsidir. Prezidentin sərəncamı ilə qəzetimizin əməkdaşlarından baş redaktorun müavini Mətanət Məmmədovanın "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adı, məsul katibin müavini Məhəbbət Mirzəyevanın isə "Tərəqqi" medalı ilə təltif edilməsi kollektivimizə ikiqat bayram sevinci yaşatdı. Yüksək ada layiq görülən həmkarlarımızın bir neçəsi ilə həmsöhbət olduq.***

# Dövlət qayğısı, zəhmət, əzmkarlıq və uğur

***Rauf Əliyev – Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri, "Tərəqqi" medalı ilə təltif edilən jurnalist:***



– Əvvəlcə onu qeyd etmək istərdim ki, ölkə Prezidentinin "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 30 iyun tarixli Sərəncamı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 1 iyul tarixli Sərəncamı ilə "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi mətbu irsimizə verilən ən böyük dəyər olmaqla yanaşı, həm də inkişaf mərhələsinin əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan milli mətbuatımızın yubileylərinin qeyd edilməsi ilə bağlı ənənəyə söykənir. Həmin ənənənin uğurla davam etdirilməsi hər bir jurnalisti qəlbən sevindirir. Bu çərçivədə mətbuatın inkişafında xidmətləri olan jurnalistlərin fəxri adlarla, medallarla təltif edilməsi, media nümayəndələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində addımların atılması, mətbuata əlavə maliyyə yardımının ayrılması dövlətimizin mətbuata, jurnalist əməyinə verdiyi çox yüksək qiymətin parlaq nümunəsidir.

Mən də çox sevinirəm ki, mətbuat sahəsində fəaliyyətim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, göstərilən diqqət və qayğıdan kənarda qalmamışam. Sevinirəm ki, bu qayğını canım qədər sevdiyim doğma Naxçıvanda fəaliyyət göstərdiyim illərdə daha aydın şəkildə hiss etmişəm. 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük diqqət və qayğısı nəticəsində Naxçıvan şəhərində üçotaqlı mənzillə təmin olunduğum günü indi də yaxşı xatırlayıram. Həmin vaxt sevincimin həddi-hüdudu yox idi. Onu da deyim ki, məndən əvvəl də, sonra da muxtar respublikada çalışan çoxsaylı jurnalist həmkarlarım bu sevinci yaşayıblar. Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri nümayəndələrinin təltif edilməsi haqqında" 2020-ci il 22 iyul tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmağım mənə böyük sevinc bəxş etdi. Bir daha əmin oldum ki, çəkilən zəhmət həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Mənim və digər dəyərli, layiqli həmkarlarımın fəxri adlarla, medallarla təltif edilməsi də bunun növbəti nümunəsidir. Buna görə dövlətimizin başçısına minnətdarlığımı bildirirəm.

***Abbas Seyid – "El həyatı" qəzetinin redaktor əvəzi, Azərbaycan Respublikasının Əməkdar jurnalisti:***

– Taleyim elə gətirib ki, mətbuatdakı fəaliyyətim həm Sovetlər Birliyi vaxtına, həm səksəninci illərin sonu, 90-cı illərin əvvəllərindəki anarxiya dövrünə, həm də inkişaf, tərəqqi və firavanlıq illərinə təsadüf edib. Amma etiraf etmək vacibdir ki, son 25 il ərzində kütləvi informasiya vasitələrinə göstərilən



diqqət və qayğını görmək həyatımın ən gözəl anları olub. Mətbuata, qələm sahiblərinə yaradılan hərtərəfli şərait, onların əməkhaqlarının bir neçə dəfə artırılması, ən əsası isə jurnalistlərə göstərilən qayğı yüksək dərəcədədir. Muxtar respublikanın bugünkü inkişafı hər bir jurnalist üçün ilham mənbəyidir. Bu mənbə həyatımızın bütün sahələrindədir. Biz jurnalistlərin üzərinə isə o düşür ki, qələmi əlinə alıb bu günün salnaməsini yaradaq. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Mətbuat işçiləri dövrün salnaməsini yaradan və onu gələcəyə daşıyanlardır. Muxtar respublikada jurnalistlərin fəaliyyəti üçün yaradılan şərait qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verir".*** Qədim diyarımızda həyata keçirilən abadlıq və quruculuq işləri, tariximizə, mədəniyyətimizə, sadə əmək adamlarına göstərilən hərtərəfli diqqət və qayğı bu günün tarixini qələmə alan bizlər üçün ən dəyərli mövzulardır.

Layiq görüldüyüm yüksək ad məsuliyyətimi daha da artırıb. Bu mənə göstərilən ən böyük qayğıdır. Bunun üçün ölkə Prezidenti cənab İlham Əliyevə və Ali Məclisin Sədrinə dərin minnətdarlığımı bildirirəm. Mənə göstərilən etimada bundan sonrakı fəaliyyətimdə də əməli işimlə cavab vermək üçün daha səylə çalışacağam.

***Elnarə Heydərova – Naxçıvan Dövlət Televiziyasının İctimai-siyasi məsələlər redaksiyasının redaktoru:*** – "Nuhçıxan Naxçıvan", "Ailə təsərrüfatları", "Günün tələbi" və bir çox verilişin müəllifidir. O da Azərbaycan milli mətbuatının 145 illik yubileyi günündə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb. O, Ali Diplomatiya Kollecinin Beynəlxalq jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirib:



– İlk əmək fəaliyyətinə 1997-ci ildə başlamışam. Bu iş mənim həyatımdır. Mən özümü bu peşəsiz təsəvvür edə bilmirəm. 19 il Xəbərlər redaksiyasında işləmişəm. 5 ildir ki, İctimai-siyasi məsələlər redaksiyasında fəaliyyətimi davam etdirirəm. Jurnalistlik peşəsini jurnalistlərimiz Adil Babayev, Afiq Haqverdiyev, Aydın Tarverdiyev, Nurəddin Babayev kimi peşəkarlardan mənimsəmişəm. Onlardan öyrəndiklərim hər addımbaşı köməyimə çatır. Bu gün Naxçıvanda biz media nümayəndələrinin işləməsi üçün hər cür şərait yaradılıb. Bu şəraitdən səmərəli istifadə edən fədakar jurnalistlərin əməyi həmişə dövlətimiz tərəfindən qiymətləndirilir. Onlardan biri ola bilmək isə hamımızın arzusudur. Bu gün bizə göstərilən qayğı bu sahədə çalışan gənc əməkdaşlara da əlavə stimul oldu. "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülməyim məsuliyyətimi ikiqat artırdı. Elə bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan milli mətbuatının yaranmasının 145 illiyi münasibətilə keçirdiyi yaradıcılıq müsabiqəsində "Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişafının, turizm potensialının, ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin, tarixi-mədəni irsimizin və milli dəyərlərimizin təbliği" istiqaməti üzrə ikinci yerin qalibi olmuşdum ki, bu təltif sevincimin üstünə daha böyük sevinc gətirdi. Əmək fəaliyyətimə verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlığımı bildirirəm. Bundan sonra da bu və ya digər verilişləri hazırlayarkən ulu Naxçıvanımızın qədim tarixinin, folklorunun təbliğatçısına çevriləcək, təbiətini, torpağının zəhmətkeş, səmimi insanlarını, onların əməyini daha dolğun şəkildə tamaşaçıya çatdırmağa çalışacağam.

***Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Elşən Məhərrəmov*** da Azərbaycan milli mətbuatının 145 illik yubileyi günündə "Tərəqqi" medalı ilə təltif olunub. Dövlət əhəmiyyətli tədbirlər üzrə peşəkar videomontaj operatoru, illərdir, saysız-hesabsız efir materiallarını zərgər dəqiqliyi ilə işləyib tamaşaçılara çatdıran bir televiziya işçisi kimi bu sevinci yaşayanlardandır:



– Naxçıvan televiziyasına 2005-ci ildə, burada montajçı işləyən bacım Gülşən Məhərrəmovanın tövsiyəsi ilə gəldim. Sonralar montaj işini öyrənməyimdə də ən böyük dəstəkçim elə o oldu. Amma o zaman televiziya maddi-texniki sarıdan kasad idi. Kameralar videokasetlərlə işləyirdi, elə montajlar da. Videokasetlə montaj çox ağır, üzücü bir iş, böyük vaxt itkisi demək idi. Ancaq indi maddi-texniki baza çox güclənib. Təkcə Xəbərlər redaksiyasının 4 montaj otağı və biri 10 min manat dəyərində olan HD montaj kompüterləri və qurğuları var. Əvvəllər gecə saat $23^{00}$-a qədər gördüyümüz işi artıq operativ olaraq 3-4 saata və fiziki yorğunluq çəkmədən başa çatdırırıq. İndi elə montaj proqramları da var ki, bir neçə işi eyni vaxtda görə bilirik. Lakin proqramlar, avadanlıqlar dəyişsə də, yaradıcılıq prinsipləri eynidir. 15 illik əmək fəaliyyətimin 3 ili televiziyanın digər redaksiyalarında verilişlərin montajına, 12 ili isə Xəbərlər redaksiyasında montaj işinə həsr olunub. 2014-cü ildən Xəbərlər redaksiyasında həm də rejissor işini aparıram.

*Bu günün mətbuat işçiləri xoşbəxtdirlər. Ona görə ki, biz jurnalistlər Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi Naxçıvanın zəngin tarixi keçmişini, dosta qürur, düşmənə gözdağı olan bu gününü və möhkəm təməllər üzərində dayanan parlaq gələcəyini qələmə alanlarıq.*

✍ **Ramiyyə ƏKBƏROVA**

# Gənc ailə sevincini bölüşdü

Muxtar respublikamızda fəaliyyət göstərən jurnalistlər, sözün həqiqi mənasında, yüksək qayğı əhatəsindədirlər. Kütləvi informasiya vasitələri nümayəndələrinə fəxri adlar verilir, maliyyə yardımı göstərilir, onların əməyi layiqincə qiymətləndirilir. Jurnalistlərin mənzillərlə təmin olunması isə onların sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin davamıdır. 2011-ci ildə – mətbuat bayramı ərəfəsində ölkə Prezidenti jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar sərəncam imzalamışdı. Həmin sərəncama əsasən Bakıda 5 mərtəbəli binanın bünövrəsi yenicə qoyulmuşdu ki, muxtar respublikada ilk mənzil "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədova hədiyyə edildi. Daha sonra – 2017-ci ildə isə hazırda Naxçıvan Dövlət Teleradio Şurasının sədri kimi fəaliyyət göstərən Rauf Kəngərli mənzillə təmin olundu.

Qürurverici haldır ki, bu ənənənin davamı olaraq milli mətbuatımızın yaranmasının 145 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Televiziyasının gənc əməkdaşları Aysun Məmmədli və Razim İsmayıllının səmərəli fəaliyyətləri qiymətləndirilərək yeni mənzillə təmin edildilər.



Biz də həmkarlarımız ilə görüşüb onların sevinclərinə şərik olduq.

***Aysun Məmmədli – Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor:*** – Müstəqil Azərbaycanda milli mətbuatın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndər ölkənin üzləşdiyi çətin şəraitdə, iqtisadiyyatın iflic vəziyyətə düşdüyü bir vaxtda söz və mətbuat azadlığının təmin edilməsi, jurnalistlərin sosial həyat şəraitinin yaxşılaşdırılması məsələlərini də daim diqqət mərkəzində saxladı. 2003-cü ildə bu proses yeni inkişaf mərhələsinə qədəm qoydu. Dövlət başçısının hərtərəfli qayğısı nəticəsində ölkəmizdə kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası əsasında mühüm layihələr icra edildi. Maddi-texniki bazanın daha da möhkəmləndirilməsi, maliyyə vəsaiti ayrılması, mətbuatın üzləşdiyi problemlərin aradan qaldırılması media nümayəndələrinin sevincinə səbəb olur.

Muxtar respublikamızda da bu sahədə uğurlu dövlət siyasəti həyata keçirilir. Bunun nəticəsində teleradio materiallarının keyfiyyəti xeyli yaxşılaşdırılıb, muxtar respublikada rəqəmsal yayıma keçid təmin olunub, televiziyanın internet saytı yaradılıb, televiziya və radionun internet üzərindən canlı yayımı təmin edilib. Bu gün artıq Naxçıvan televiziyası və radiosu hər gün 19 saat olmaqla, bütün dünyaya yayımlanır. 140-dan çox ölkədə izlənilir. Hər həftə izləyicilərə rus və ingilis dillərində xəbər buraxılışlarının çatdırılması xarici ölkə izləyicilərinin qədim diyarımız haqqında dolğun, obyektiv informasiya almaq imkanlarını daha da artırır. Fəxr edirik ki, dövlət qayğısı ilə əhatə olunmuş müasir şəraitdə yaradıcı fəaliyyət göstəririk.

Bu gün gənc ailə olaraq sevincimizin həddi-hüdudu yoxdur. Kiçik fəaliyyətimizin yüksək qiymətləndirilməsi, qayğı ilə əhatə olunmağımız qürurvericidir. Bir jurnalist üçün mənzil probleminin ortadan qaldırılması təqdirəlayiq haldır. Əməyimizə verilən bu qiymət biz jurnalistlərin məsuliyyətini birə-beş artırır və qarşımızda mühüm vəzifələr qoyur. Biz də, öz növbəmizdə, yaradılan şərait, göstərilən qayğı müqabilində günün nəbzini tutacaq materialların operativ şəkildə efirə yayımlanmasında səylə çalışacağıq.

***Razim İsmayıllı – Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində rejissor:*** – Muxtar diyarımızda mediaya göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin jurnalistlər ilə keçirdiyi görüşlər, onların problemləri ilə maraqlanması, sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı konkret addımların atılması, dəyərli məsləhətlər verməsi qələm sahiblərinin fəaliyyəti üçün geniş imkanlar açır.

Bir gənc ailə kimi mənzillə təmin olunmağımıza gəlincə, bu, sözün həqiqi mənasında, əvəzolunmaz bir xoşbəxtlikdir. Gənc ailənin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasının gəncliyə göstərilən etimadın ifadəsidir. Bizim üçün yaradılan şəraitə görə muxtar respublika mediası adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarıq. Əmin edirəm ki, bundan sonra da dövlətçiliyimizə, xalqımıza xidmət edəcək, işimizi günün tələbləri səviyyəsində qurmağa çalışacaq, muxtar respublikanın müasirləşən, inkişaf edən şəhərləri, kəndləri ilə bağlı daha aktuallıq kəsb edən verilişlər hazırlamaqda, filmlərin ərsəyə gəlməsində əlimdən gələni əsirgəməyəcəyəm.

*İnanırıq ki, muxtar respublikamızda gənc jurnalist əməyinə verilən bu yüksək dəyər, göstərilən qayğı onların bütün həmkarları üçün də növbəti stimul olacaq. Qələm və söz sahiblərimizi diyarımızın inkişafı naminə aparılan uğurlu dövlət siyasətinin, yurdumuzun qədim tarixinin və müasir tərəqqisinin, ecazkar təbiətinin, zəngin turizm potensialının təbliğində yeni-yeni yaradıcılıq uğurlarına ruhlandıracaq.*

**Nuray ƏSGƏROVA**
***jurnalist***

## İtmişdir

Sadiqov İsmayıl Əliqulu oğlunun adına Naxçıvan şəhəri, Nizami küçəsi 41-də yerləşən "Təhsil" kiçik müəssisəsinə 03.03.2003-cü ildə verilmiş 000167 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Abdullayev Zəka Ceyhun oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 546